Ədəbiyyat QƏZETİ

Azərbaycan tənqid və ədəbiyyatşünaslıq elminin ilk peşəkar və görkəmli nümayəndəsi Firidun bəy Köçərlidir. Onun elmi və ictimai fəaliyyəti XX əsr Azərbaycan ədəbiyyatı, habelə bir sıra qardaş xalqların görkəmli sənətkarlarının yaradıcılığı və ümumən mütərəqqi, demokratik ədəbi irslə sıx bağlı olmuşdur. F.Köçərli bu elm sahəsinin təməl daşlarını qoymuş və onun gələcək inkişafı üçün geniş yollar açmışdır.

Naxçıvan Özəl Universitetində "Firidun bəy Köçərli və Azərbaycan ədəbiyyatı" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə açan universitetin prorektoru F.İbrahimzadə F.Köçərlinin həyat və yaradıcılığı haqqında məlumat vermiş və bildirmişdir ki, məşhur Azərbaycan alimi, tənqidçi və pedaqoqu Firidun bəy Əhməd ağa oğlu Köçərli 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Öz təbii gözəlliyi ilə seçilən Şuşa şəhəri F.Köçərlinin mənəvi inkişafına çox müsbət təsir göstərmişdir. Onun oxucuya təqdim olunan əsərləri Azərbaycan ədəbiyyatşünaslığı, tənqid və estetik fikri tarixində şərəfli yerlərdən birini tutur. 40 illik fəaliyyətini doğma xalqının ictimai və mədəni tərəqqisinə həsr edən Köçərli dahi mütəfəkkir, yazıçı M.F.Axundovun maarifçilik ənənələrinin fəal təbliğatçısı və yorulmaz davamçısı olmuşdur. Natiq onu da vurğulamışdır ki, F.Köçərlinin həyatında maraqlı hadisələrdən biri onun Qori Müəllimlər Seminariyasında təhsil alması və elmi fəaliyyətə də hələ tələbə ikən başlamasıdır. F.Köçərli 1895-ci ildən 1918-ci ilə qədər Qori Müəllimlər Seminariyasında çalışmış, uzun illər buradakı Azərbaycan şöbəsinə rəhbərlik etmişdir.

Sonra ədəbiyyat kafedrasının baş müəllimi R.Babayev "F.Köçərli - Azərbaycan ədəbiyyatşünaslarından biri kimi" mövzusunda çıxış etmiş və qeyd etmişdir ki, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslığının ən görkəmli nümayəndəsi F.Köçərli idi. O, elmi fəaliyyətə tələbə ikən başlamış, "Təlimi Sokrat" kitabını yazmışdır.

## Naxçıvan

Onun təşəbbüsü və səyi nəticəsində Qazax Müəllimlər Seminariyası yaradılmışdır. M.F.Axundzadənin həyat və yaradıcılığını ilk dəfə Firidun bəy tədqiq etmiş, "Mirzə Fətəli Axundov" adlı kitab yazmışdır. 1912-ci ildə "Balalara hədiyyə" kitabını, 1913-cü ildə Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq sistemli ədəbiyyat tarixi haqda "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabını yazmışdır. Kitabda M.Füzuli, M.P.Vaqif, Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani və başqaları haqqında oçerklər verilmişdir.

Tələbələrdən tarix ictimaiyyət ixtisası üzrə II kurs tələbəsi Anar Tağıyev "F.Köçərli yaradıcılığında vətənpərvərlik" mövzusunda, Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə II kurs tələbəsi Aysel Kərimova "Firidun bəy Köçərli yaradıcılığında ana dili və onun tədrisi" mövzusunda çıxışlar etmişlər.

**M.Qasımova**